Azərbaycan Respublikası

elm və təhsil nazirinin 23.05.25

tarixli 3-23/3-2-332F/2025 nömrəli əmri ilə

təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

Əlavə 2

# DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXVIII RESPUBLİKA ELMİ KONFRANSININ (NASCO XXVIII) ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika elmi konfransı (bundan sonra – Konfrans) gəncləri elmi yaradıcılığa fəal surətdə cəlb etmək və onların apardıqları elmi tədqiqatların nəticələrinin müzakirəsini təşkil etmək məqsədilə keçirilir.

1.2. Konfransın istiqamətləri aşağıdakılardır:

1.2.1. Təbiət elmləri (kimya, fizika, biologiya, tibb, ətraf mühit, geologiya, coğrafiya, enerji resursları, və s.);

1.2.2. Mühəndislik (mexanika, elektrik-elektronika, robototexnika, avtomatlaşdırma və inşaat mühəndisliyi, neft-kimya və s.);

1.2.3. Riyaziyyat və İKT (süni intellekt, kibertəhlükəsizlik, informasiya texnologiyaları, biotexnologiya, data analitika, kompüter elmləri və s.);

1.2.4. Sosial və humanitar elmlər (tarix, arxeologiya və etnoqrafiya, antropologiya, fəlsəfə, hüquq, politologiya, kulturologiya, jurnalistika, metodika, ədəbiyyatşünaslıq, dilçilik, pedaqogika, sosiologiya, psixologiya və s.);

1.2.5. İctimai elmlər (iqtisadiyyat, maliyyə, statistika, ekonometrika, turizm, menecment və s.).

1.3. Konfransın keçirilməsi üçün Elm və Təhsil Nazirliyi tərəfindən Təşkilat komitəsi yaradılır (sədr, sədr müavini, elmi katib və üzvlər).

## 2. Konfransa müraciət prosesi

2.1. Konfransın qaydaları və əsas tarixlərində hər hansı bir dəyişiklik konfransın Təşkilat komitəsi tərəfindən müəyyən edilir.

2.2. Konfransa məqalələr Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin internet saytında yerləşdirilən konfrans səhifəsindən (nasco.asoiu.edu.az) təqdim edilməlidir.

2.3. Müraciətlər ilkin olaraq Konfransın Təşkilat komitəsi tərəfindən 3, 4 və 5-ci bölmələrdə qeyd olunan tələb və qaydalara uyğun yoxlanılır. Müvafiq uyğunluq olduğu təqdirdə təqdim olunan məqalələr konfransın Elm komitəsi tərəfindən qapalı dəyərləndirmə sistemi vasitəsi ilə dəyərləndirilir. Əgər müraciət keyfiyyət və yazı standartlarına cavab verirsə "Qəbul", əgər müəyyən məzmun və ya texniki düzəlişlərə ehtiyac varsa, "Düzəliş", konfransın standartlarına cavab vermirsə, "İmtina" cavabı gələcəkdir. Qəbul rəyi, elan olunmuş tarixə qədər göndəriləcəkdir. "Düzəliş" tələb edən məqalələr üçün müəlliflərə 1 (bir) həftə vaxt veriləcəkdir. Müvafiq düzəlişlərdən sonra müəllif yeni faylı göndərməlidir. Əgər qeyd edilən vaxta qədər göndərilməzsə, həmin şəxsə "İmtina" cavabı veriləcəkdir. Düzəliş üçün müəlliflərə bir dəfə şans veriləcəkdir. Düzəlişdən sonra məqalələrə yenidən baxılacaq, rəylər nəzərə alınıbsa, müəllifə "Qəbul", rəylər nəzərə alınmayıbsa, "İmtina" cavabı veriləcəkdir.

## 3. Konfrans iştirakçıları

3.1. Konfransda təşkilati-hüquqi formasından asılı olmayaraq:

3.1.1. Azərbaycan vətəndaşı olub ölkə və ya xaricdəki ali təhsil və ya elmi müəssisələrin tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorant və ya dissertantlar;

3.1.2. Azərbaycanda yerləşən ali təhsil və ya elmi müəssisələrin elm tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan əcnəbi doktorant və ya dissertantlar;

3.1.3. Yaşı 35-dən çox olmayan elmi dərəcəsi olan şəxslər.

3.2. Məqalələr Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin internet saytında yerləşdirilən konfrans səhifəsindən (nasco.asoiu.edu.az) müraciət zamanı qeyd edilən sənədlər müəyyən edilmiş formada təqdim edilməlidir. Hər iştirakçı yalnız bir məqalə təqdim edə bilər.

## 4. Məqalələrin tərtib olunma qaydaları

4.1. Məqalələrdə problemin aktuallığı və müəllif tərəfindən aparılmış tədqiqatın nəticələri əks olunmalı, alınmış nəticələrin istifadəsinə (tətbiqinə) dair təkliflər verilməlidir. Məqalələrin seçimində üstünlük yaradıcılıq qabiliyyəti və əsaslandırılmış yen ideyaları olan müəlliflərə verilir.

4.2. Məqalələr aşağıdakı tələblərə uyğun tərtib edilir:

4.2.1. Məqalələr üç dildə - azərbaycan, ingilis və rus dillərində qəbul olunur (beynəlxalq elmi jurnallarda çap üçün məqalə yalnız ingilis dilində təqdim edilməlidir).

4.2.2. Konfransa empirik tədqiqat metodlarına əsaslanan, dünya və ölkə əhəmiyyətli mövzuları əhatə edən, əvvəllər nəşr və məruzə olunmamış məqalələr göndərilməlidir.

4.2.3. Konfransın Təşkilat və Elm komitəsi tərəfindən yüksək keyfiyyətli hesab edilən məqalənin beynəlxalq elmi jurnallarda nəşrinə imkan yaradılacaqdır.

4.2.4. Məqalələr "doc", "docx" sonluqlu MS Office Word fayl formatında hazırlanmalı, səhifə ölçüləri isə sol kənar – 2.5 sm, sağ kənar 1.5 sm, alt və üst – 2.0 sm şəklində olmalıdır.

4.2.5. Məqalələr əlavələr xaric, xülasə, açar sözlər, əsas mətn (giriş, nəzəriyyə, metod, nəticə və təkliflər), istifadə edilmiş ədəbiyyat, cədvəllər, şəkillər daxil 8-15 səhifə arasında olmalıdır.

4.2.6. Məqalənin son səhifəsinə əsas mətnin yazıldığı dildən başqa digər iki dildə (4.2.1-də qeyd edilən dillər) xülasə əlavə edilməlidir. Bu zaman məqalənin adı, müəllif haqqında məlumatlar, xülasə və açar sözlər qeyd edilir.

4.2.7. Məqalənin başlığı 10-12 sözdən çox olmamaqla, Times New Roman 14 şriftlə, bütün hərflər böyük olmaqla, Bold, Center formatında yazılır. Onun altında sağa düzləndirilmiş formada müəllifin adı, soyadı və ata adı, növbəti sətirdə isə müəllifin təhsil aldığı və ya çalışdığı müəssisənin adı yazılır. Onun altında ORCID nömrəsi və korporativ elektron poçt ünvanı yazılır. Xülasələr minimum 250, maksimum 500 söz olmaqla Times New Roman 10 şrift, sətir aralığı 1.15, justified formatında yazılır.

4.2.8. Cədvəl, şəkil və qrafiklərin daxili yazıları, başlıqları və alt şərhləri 1,0 aralıqlı sətirlə, Times New Roman 10 şrifti ilə, başlıqları isə yalnızca ilk hərfi böyük olmaqla 10 şriftlə bold yazılmalıdır. Hər bir cədvəl, şəkil və ya qrafik özünə uyğun nömrələnməlidir.

4.2.9. Məqalədə istinadlar və ədəbiyyat siyahısı APA stilinə uyğun olaraq qeyd olunur. Yəni istinad cümlənin sonunda mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilir. İstinaddan sonra nöqtə qoyulur. Məqalədə istənilən sayca istinad göstərilməli və ədəbiyyatdan istifadə olunmalıdır. İstinadların hamısı istifadə edilmiş ədəbiyyat siyahısında yer almalıdır. Bir başqa ifadə ilə istinad verilməyən mənbə istifadə edilmiş ədəbiyyat siyahısına daxil edilməməlidir.

4.2.10. Məruzədə istifadə edilmiş elmi ədəbiyyata istinad və mənbələr bu caydada göstərilir:

*4.2.10.1. İstinadlara dair nümunə:*

- Tək müəllifli olduğu halda (Məmmədov, 2007), (Pretty, 1994).
- İki müəllifli olduğu halda (Əliyev və Osmanov, 2014), (Krugman & Stiglitz, 2010).
- Üç və beş müəllifli olduğu halda (Kernis et., 1993).
- Əgər istinad olunan bir təşkilat və ya dövlət qurumudursa, ilk istinadda olduğu kimi istinad olunur, sonrakı istinadlarda isə əgər çox bilinən bir qurumdursa, qısaltması qeyd olunur;
  - ilk istinad (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2014),
  - ikinci istinad (ARDSK, 2014).
- Əgər elmi işdə birdən çox mənbəyə istinad verilmişdirsə, bunlar əlifba sırasına görə düzülməlidir və əsərlər nöqtəli vergül ilə bir birindən ayrılmalıdır (Akar, 2010; Çalışkan, 2008; Dinçer ve Kolaşin, 2009; Engin ve Demir, 2009; Tunç, 2007)

*4.2.10.2. Ədəbiyyatın siyahısının tərtibinə dair nümunə:*

- Berndt, T. J. (1981a). Age changes and changes over time in prosocial intentions and behavior between friends. *Developmental Psychology, 17,* 408-416.
- Berndt, T. J. (1981b). Effects of friendship on prosocial intentions and behavior. *Child Development, 52*, 636-643.
- Berndt, T. J. (1999). Friends' influence on students' adjustment to school. *Educational Psychologist, 34*, 15-28.
- Berndt, T. J. (2002). Friendship quality and social development. *Current Directions in Psychological Science, 11*, 7-10.
- Berndt, T. J. and Keefe, K. (1995). Friends' influence on adolescents' adjustment to school. *Child Development, 66*, 1312-1329.

- Harlow, H.F. (1983). Fundamentals for preparing psychology journal articles. *Journal of Comparative and Physiological Psychology, 55*, 893-896.

- Kernis, M.H., Cornell, D.P., Sun, C.R., Berry, A., Harlow, T. and Bach, J.S. (1993). There's more to self-esteem than whether it is high or low: The importance of stability of self-esteem. *Journal of Personality and Social Psychology, 65*, 1190-1204.

- Wegener, D.T. and Petty, R.E. (1994). Mood management across affective states: The hedonic contingency hypothesis. *Journal of Personality and Social Psychology, 66*, 1034-1048.

## 5. Plagiat

5.1. Konfransa müraciət zamanı məqalənin plagiatdan keçirilməsinə dair müəllif tərəfindən detallı arayış təqdim edilməlidir.

5.2. Plagiat faizi 15%-dən artıq olduğu halda məqalə qəbul edilmir.

## 6. Konfransın gedişi

6.1. Konfransın işi bölmələr üzrə aparılır. Bölmələrə sədr və həmsədrlər rəhbərlik edirlər.

6.2. Məruzəçilər öz məruzələri ilə müvafiq bölmələrdə çıxış edirlər. Məruzəyə bir qayda olaraq 10 dəqiqəyə qədər vaxt ayrılır. 8 dəqiqə çıxış, 2 dəqiqə isə sual-cavab üçün verilir.

6.3. Məruzəçilər təqdimatla (ppt, pptx) çıxış edirlər. Təqdimatın əvvəlində mövzunun adı, məruzəçinin adı və soyadı qeyd edilməlidir. Təqdimatda əsas təqdim edilən mövzunun məqsədi, predmeti göstərilməlidir. Cümlələr qısa, aydın və lokanik olmalıdır. Əlavə fikirlər isə şifahi şəkildə bildirilməlidir. Təqdimata əlavə edilən şəkillər, videolar, musiqi təqdimatın mövzusuna uyğun olmalı, sonda əsas fikir və nəticə göstərilməlidir.

6.4. Konfransın işçi dili Azərbaycan, rus və ingilis dilləridir.

6.5. Bölmələrdə çıxış edən məruzəçilərin məqalələri sədr və həmsədrlər tərəfindən qiymətləndirilərək müvafiq qərarı "nəşrə tövsiyə edilir" və ya "nəşrə tövsiyə edilmir" qəbul edilir, qərar protokollaşdırılır. Protokol Təşkilat komitəsinə təqdim olunur.

## 7. Konfransın yekunu

7.1. Konfrans çərçivəsində məruzə olunması üçün təsdiqlənmiş və konfrans proqramında yer alan məqalələr yalnız müəllif tərəfindən məruzə olunduqdan sonra nəşr oluna bilər. Konfransa ingilis dilində təqdim edilmiş və keyfiyyət göstəricilərinə görə fərqlənən məqalələr beynəlxalq elmi və ya impakt faktorlu jurnallarda (SCOPUS və WoS platformalarında indekslənən) nəşr üçün seçilə bilər. Beynəlxalq jurnallarda nəşr üçün seçilməmiş məqalələr "Konfrans Materialları"nda nəşr olunur.

Azərbaycan Respublikası elm və təhsil nazirinin 29.05.25 tarixli 29/3-2-33 ZF/2025 nömrəli əmri ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

Əlavə 1

**Doktorantların və gənc tədqiqatçıların XXVIII Respublika Elmi Konfransının (NASCO XXVIII) TƏŞKİLAT KOMİTƏSİ**

| | |
|---|---|
| Emin Əmrullayev (sədr) | Azərbaycan Respublikasının elm və təhsil naziri |
| İdris İsayev | Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini |
| Mətin Kərimli | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri |
| Rüfət Əzizov (sədr müavini) | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru |
| Ülkər Səttarova | Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru |
| Elnur Əliyev | Nazirin müşaviri, Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru vəzifəsinin müvəqqəti icra edən |
| Nicat Məmmədli | Nazirin müşaviri |
| Azər Abızadə | Nazirin müşaviri |
| Rauf Orucov | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri |
| Turxan Süleyman | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri |
| Səbuhi Rzayev | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri |
| Afət Sadıqova (elmi katib) | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm ali və peşə təhsili şöbəsinin baş məsləhətçisi |
| Lətafət Qardaşova | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Elmi işlər prorektoru |
| Səyami Hüseynov | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İnzibati-təsərrüfat işləri üzrə prorektoru |

| | |
|---|---|
| Rza Məmmədov | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorunun müşaviri |
| Tahir Məmmədli | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorunun müşaviri |
| Nəsibə Əmirbəyova | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorunun müşaviri |
| Xülya Sabirli | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İctimaiyyətlə əlaqələr və marketinq departamentinin müdiri |
| Elviz İsmayılov | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Rəqəmsal inkişaf və innovasiyalar mərkəzinin direktoru |
| Zülfüqar İbrahimli | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Doktorantura şöbəsinin müdiri |
| Elmar Quliyev | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Layihə meneceri ofisinin layihə meneceri |
| Şamil Əhmədov | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Elm və təhsil analitik mərkəzinin Strategiya və təbliğat şöbəsinin mütəxəssisi |